**Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin rektoru**
**Ceyran xanım Mahmudovaya**

**Hörmətli Ceyran xanım!**

*Ulu öndər Heydər Əliyevin daim diqqətdə saxladığı Azərbaycan təhsili bu gün Ümummilli liderin layiqli varisi Prezident cənab İlham Əliyevin rəhbərliyi altında daha da inkişaf etmiş, təhsilin keyfiyyətinin yüksəldilməsinə nail olunmuşdur. 100 illik tarixə malik olan Mədəniyyət və İncəsənət Universiteti dövlət başçısı cənab İlham Əliyevin müdrik rəhbərliyi ilə daha da şaxələnmiş, yeni uğurlara imza atmışdır.*

*Dövrün görkəmli ədəbi simalarının və məşhur sənət adamlarının tədrisə cəlb edildiyi Bakı Teatr Məktəbinin bazasında təşkil olunmuş Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti ölkənin zəngin ənənələrə malik ali təhsil müəssisələrindəndir. Ötən müddət ərzində Universitet milli mədəniyyətin və incəsənətin tərəqqisi işinə mühüm töhfələr vermişdir. Azərbaycanın tanınmış mədəniyyət və incəsənət xadimləri arasında bu nüfuzlu təhsil ocağının çox sayda məzunu vardır. Universitetin yetirmələri hazırda respublikamızda və onun hüdudlarından kənarda müvəffəqiyyətlə çalışırlar. Fəaliyyətini dövlətin mədəniyyət və təhsil srategiyalarının hədəflərinə uyğun, müasir tələblər səviyyəsində quran Universitet mədəniyyətin və incəsənətin bütün başlıca sahələrini əhatə edən müvafiq ixtisaslar üzrə genişprofilli şəbəkə formalaşdırmış, həmçinin dünyanın bir sıra ölkələrinin ali təhsil və mədəniyyət mərkəzləri ilə qarşılıqlı faydalı tərəfdaşlıq əlaqələri yaratmışdır.*

*Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti bu gün tədris prosesində innovativ texnologiyalardan və yeni təlim metodlarından səmərəli şəkildə istifadə edir. Universitetin professor və müəllim heyəti təhsil ocağının maddi texniki bazasını möhkəmləndirmək üçün daim səylərini artırır.*

**Hörmətli Ceyran xanım!**

***Sizi Universitetinizin 100 illik yubileyi münasibətilə*** *ürəkdən təbrik edir, gənc nəslin təlim-tərbiyəsinin nümunəvi təşkili, universitetin intizam qaydalarının daha da möhkəmləndirilməsi, elmi-pedoqoji fəaliyyətin yaxşılaşdırılması, Azərbaycanda mədəniyyət və incəsənətin inkişafı naminə Sizə tükənməz enerji, bol-bol uğurlar arzulayıram!*

**100 illik yubileyiniz mübarək!**

**Dərin hörmətlə,**
**Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri, Millət vəkili**
**Səttar Möhbalıyev**